ÇİNGİZ DAĞCI

# ONLAR DA İNSANDI

ROMAN



Çingiz  Dağcı

# Onlar da insandı

«Hadaf Neshrleri»

**Dağcı Ç.**

Onlar da insandı / Ç. Dağcı — «Hadaf Neshrleri»,

Çingiz Dağcı 1958-ci ildə qələmə aldığı "Onlar da insandı" romanı XX əsrin əvvəllərindən ortalarınadək Krım tatarlarının yaşayış tərzindən, onların sosializmdən qabaq torpağa necə ülvi hislərlə bağlı olduqlarından, ailə-məişət məsələlərindən, adət-ənənələrindən, Stalinin hakimiyyəti dövründə bu türk tayfalarına edilən haqsızlıqlardan, başlarına gətirilən faciələrdən bəhs edir. Əsərin dramatik xətti fonunda saf və məsum insanların ruslar tərəfindən necə əzilməsi, müxtəlif siyasi gedişlər açıq-aydın göstərilir. Müəllif bu tarixi faciəyə öz fəlsəfi-psixoloji baxış bucağından baxmağa, insanlar arasındakı sərhədlərin əslində siyasi oyun olduğu məsələsinə diqqət çəkməyə çalışır.

© Dağcı Ç.
© Hadaf Neshrleri

**Çingiz Dağçı**
**Onlar da insandı**
Roman
Birinci bölüm
1

– Get, Məcik, get… oha, oha! İndi yolun ortasında taqətdən düşmək vaxtı deyil. Hava qaralmamış evə çatsaq, sənə afərin deyəcəm! Sabah naxıra da getməyəcəksən. Yemin də başının üstündə, suyun da! Xanım kimi ye, yat, qızım! Get, Məcik, get, qızım! Hörmətin artdı. Zarafat deyil, Rum öküzü bətninə dana qoydu. Sən artıq ikicanlısan. Allah qoysa, balan atasına oxşayar! Qonşularımız inəklərini Rum kəndinə aparınca, bizim tövləyə gətirərlər. Sənin balan böyüyüb kənddəki inəklərin qarnını dombaldar, mənim də cibimi. Get, Məcik, get, qızım, oha, oha… Rumun dörd öküzü var, amma Rum ağlı, nə deyirsən, de! Heyvanın orasından belə pul çıxarır, kafirlər. Özünə saray kimi ev tikdi. "O qədər pulu hardan tapdı?" – soruşursansa, deyim sənə: – Öküzdən! Öküzdən, vəssalam! Sənsə tütün yarpaqlarının arasında tərlə, yazıq, tərlə! Tarladan, bağdan gələn pulun dadı başqadır, başqa! Yorğun-arğın uzanasan, yuxuna tarlan, bağın, bostanın girə. Amma torpağın yoxdusa, nə görə bilərsən? Öküzün quyruğunu! Ah, axmaq xərclərdi bu, Bəkir, yaraşmaz sənə! Get, Məcik, get, get, qızım, qaranlıq düşməmiş evə çataq… Get, oha, oha!

Rum kəndindəki evlərin qırmızı qalay damları çoxdandır, yolun üstünə amfiteatr kimi qat-qat dağlara doğru yüksələn yaşıl bağların arxasında qalmışdı. Yolun sağ yanında da bir-birindən daş divarlarla ayrılmış bağlar böyük pillələr kimi, düz Qara dənizin parıltılı sularına qədər enirdi.

Səma yüksək və mavi idi. Günəş düz Roman Koşun üstündə dayanıb, parlaq şöləleri Gurzufun sakit sularında titrəyir, aşağıdakı kimsəsiz evləri, çılpaq təpələri, dərin dərələri, uçurumları, yaşıl bağları, tütün tarlalarını, bağçaları, çayırları, quru dərələr içində parıldayan incə su sicimlərini parıldadırdı.

Bəkir yolda heyvanı yormamaq üçün inəyin arxasınca ağır addımlarla kəndinə qayıdırdı. Bir-iki saatdan bir yolu hər tərəfdən örtən ağacların altından hələ uzaqdan tozu dumana qatan hansısa maşın görünür, sonra da ötüb keçirdi. Belə anlarda Bəkir inəyini yolun kənarına çəkib, səbirlə maşının uzaqlaşmasını gözləyirdi. Maşından qorxmasın deyə inəyin boynundan tutur, başını oxşayır, qulağına şirin sözlər deyirdi:

– Qorxma, qızım, qorxma! Sabah səni çobanla göndərməyəcəm. Ayşə baxacaq sənə. Qorxma, Məcik, qorxma!

Maşın keçib getdi. Dalınca havaya qalxan toz-torpaq yavaş-yavaş çəkilir, duman kimi yolun kənarında – daş divarlardan sallanan yabanı üzümlərin, əncirlərin yarpaqlarına enirdi.

Tütün vaxtı idi. Kəndlilər Qızıldaşın tütün tarlalarında idilər. Bəkirin gözünə heç kim dəymirdi.

Bəkir Gurzufun üstündə Məmiş çöllərinə çıxdı. Kəndə qədər hələ dörd kilometr qalırdı. Amma döngəni keçəndən sonra artıq özünü kəndində hiss edirdi. Ayı Dağı ilə yayla arasındakı geniş keçiddən sərin bir külək əsməyə başlamışdı. Bəkir yolun kənarına qədər getdi, inəyini daş divarın yanındakı əncir ağacına bağladı, yanındakı daşın üstündə oturdu. Keçiddən gələn xoş sərinliyi içinə doldurmaq istədi, köynəyinin düyməlerini açdı, quzu dərisindən hazırlanmış qəhvəyi papağını alnının üstündən geriyə çəkdi. Solda yüksələn dağların arxasında yaylaqlara, Ayı Dağın ətəklərinə, Qara dənizin səssiz sahillərinə nəzər saldı. İçindəki bütün hislərini dilə gətirmək istədi: "Mübarək torpaqlar, mübarək torpaqlar!" – pıçıldadı.

Krımın burası çox gözəl idi. Solda, dağların üstündəki yaylaq at yəhəri kimi təmiz və parlaq idi. Aşağıda, kəndin arxasında tütün sahələrinə qədər enən tünd yaşıl, alçaq şamlıqlar, məxmər yamaclarla örtülü dağların, dərisi soyulmuş heyvan əti rəngində bomboş torpaqları işıqlar altında yanırdı. Daha aşağıda, uçurumları al, bəyaz, sarı, qırmızı rənglərə bürünmüş Gəlin qaya ilə, ondan çox uzaqda, mərmi rəngində yaz-qış heç dəyişməyən Top qaya, bir-birlərinə baxaraq, səssiz-sakit dərdlərini danışırdılar. Top qayanın dərdi Gəlin qayanınkından daha böyük, daha dərin idi. Göyün, kim bilir, harasından qopmuş bir bulud parçası hər axşam gəlib, Top qayaya sarılardı. Əsən

küləklər Top qayaya çıxmaz, onun səssizliyini pozmazdılar. Küləklər sadəcə Ayı Dağ ilə yaylaqların arasındakı keçiddən keçər, Qızıldaş bağçalarındakı alma, armud, ərik, şaftalı, xurma ağaclarının, tütün tarlalarındakı kollara soxular, hər yerdən bir dad, bir xoş qoxu alandan sonra gedib Roman Koşun ətəklərində dincələrdilər…

Bəkir bir xeyli oturdu, xoş ətirli küləklə sərinlədi, bir siqaret çəkdi. Çox uzaqlarda, yaşıl tütün tarlaları içində, başları qırmızı, bəyaz, sarı yaylıqlarla bağlı, çalışan qızlara baxdı. Sonra ayağa qalxıb, əncir ağacından inəyinin ipini açdı: "Yolçu yolunda gərək!" – deyib yoluna davam elədi. Yenə Rumun öküzünü xatırladı, Rumun evini gözünün qabağına gətirdi. "İnəyin balası erkək olsa daha yaxşıdı, yoxsa dişi?" – deyə fikrə getdi. Bütün varlığı ilə torpağına bağlı olan Bəkir, Rumun torpaqsız-bağsız, bir neçə öküzlə varlı olmasına təəccüblənirdi. "Rumun öküzü də öküzdü ha!" – deyib, öz inəyinin də balası öküz olmasını arzuladı. Heyvan hərdən yolun ortasında dayanırdı. Ayna kimi sönük, iri gözləri ilə Bəkirə baxırdı. Bəkir, heyvanın boynunu, başını oxşayırdı: "Gəl, Məcik, aparım səni evə, gəl…" – deyərək inəyini dəhmərləyirdi.

– Öküz balalasan boynuna muncuqlar taxacağam, çobanla da göndərməyəcəm, özüm baxacam. Get, qızım, bizim Əsma arvad da səni görəndə sevinəcək. Get, Məcik, oha, oha… Balan Rumun öküzü kimi öküz olsun. Kəndlilər inəklərini Rum kəndinə aparınca bizim tövləyə gətirsinlər. Balan kənd inəklərinin qarnını dombaldar, mənim də cibimi. Amma Allahın işinə qarışmaq olmaz: öküz deyərsən, inək çıxar, inək deyərsən öküz, bilinməz heç! On beş il əvvəl can atırdım ki, oğlum olsun, sonda nə oldu, qızım oldu. Qəbahət kimdədir? Nə məndə, nə də Əsmada. Allahın istəyi qız imiş, qız oldu. Eh, nə edək! Get, Məcik, get, qızım, oha, oha! Oğlan olsun, qız olsun, əli-ayağı düz olsun! Rum öküzdən varlı oldu diyə, "Allaha mənə də öküz ver" – deyib əmr edə bilmərik ki! Get, Məcik, get, qızım…

Kəndin üstündə ilk tütün sahələrı görünürdü. Sahələrə çıxan iki yanı da daş divarla hörülmüş dərə-təpə yollarda, sağı-solu böyük zənbillər daşıyan uzunqulaqlar, atların arxalarından sahibləri gəlir, bəziləri yellənə-yellənə sahələrə çıxır, bəziləri da sahələrdən yaşıl tütün tarlalara enirdi.

İşlər ən qızğın vaxtda idi. Qədim zamanlarda olduğu kimi, sahələrda, tütün yarpaqlarını ipə keçirən qadınların, qızların, sahələrın qarşısında uzun ağaclara tütünləri bağlayan gənclərin, qocaların mahnıları bu aralar heç eşidilmirdi. Bəkir yolun kənarında əsgər kimi sıralanmış, uzun, səssiz sərv ağaclarının kölgələrini arxada buraxdı, bir az yuxarı çıxdı, əlini gözlərinə günlük etdi, sahələrın qarşısında işləyənlərə, dağların üstünə gəlmiş, istisi yavaş-yavaş azalan Günəşə baxdı.

– Günəş axşamın yolunu tutdu, mənsə bütün günü bu inəyin quyruğuna… Bağlandım, qaldım. Baxaq bizim sahələrdə nə olub bu gün.

Addımlarını tezləşdirdi. İndi tarlasında yatan tütünü fikirləşirdi.

– Allah verdi bu havanı bizə. Bir-iki həftə ərzində tütünü tarladan yığmasan işin fırıqdır. Bəkir, fırıq! Yenə gedib qonşuya yalvaracaqsan. Evdə bir arvad var, bir qız, amma yenə də qonşusuz başa çıxa bilməyəcəksən. Deyirlər ki, qonşu qonşunun tütününə möhtacdır. Tam yerində dedin bu sözü. Bizim Ayşə böyüdü deyə çoban Səid Əlinin oğulları utanırlar gəlməyə… Bu axşam mən yenə də Səid Əliyə bir baş çəkim. Amma niyə utansınlar? Özümüz üçün doğurmadıq ki, verəcəyik birisinə…

Amma bu düşüncələrinə özü də inanmır, evini, həyatını Ayşəsiz düşünə bilmirdi. Bircəcik qızı idi Ayşə, atası üçün on beş deyil, sanki beş yaşında bir qızcığaz idi Ayşə! Bəkir dərindən nəfəs aldı:

– Allah bizə bir dənə verdi… Get, Məcik, get… Çoxun dərdi çox olur, azın dərdi daha çox olur. Get, qızım, get!

Artıq sahələrə, Günəşə, yollardan enən uzunqulaqlara baxmırdı. Qızı Ayşəsinin on beş yaşına çatmasını hələ indi başa düşmüş, qızının boynunu, gözəlliyini gözlərinin önünə gətirdi, günlərin birində qəflətən istəniləcəyini düşündükcə duruxdu. "Gözəl olmasına gözəldir, amma gözəlin taleyi çirkin olur!" – deyə mızıldadı.

Günəş uzun günün işini bitirmiş kimi ağır və yorğun bir tənbəlliklə yamaca enirdi. Atlardan tütün yükləri boşaldanlar sahələrdəki işlərini bitirmişdilər. Axşamın sərinliyindən faydalanaraq

bostanlarını sulamaq üçün toxaları ilə suları kəsən insanlar, qadınlar, gənc qızlar, daha canlı və yüksək səslərlə danışırdılar.

Solda, üstü çör-çöplə tam örtülü dar yoldan bir uzunqulaq çıxdı. Yolunu bilirmiş kimi yola keçib aşağıda tarla yoluna getdi.

Bəkir dayandı, uzunqulağın kollardan çıxacaq sahibini gözlədi, amma dar yoldan kimsə çıxmadı. Səsləndi:

– Ənvər, sənsən?

– Mənəm, Bəkir Ağa!

– Bu uzunqulaq kimindir?

– Mənim.

Kolların altından Battal Ənvər çıxdı.

– Sənin bu uzunqulağın yolu bilir, amma diqqətli ol! Qarşıdakı döngədən maşın çıxsa qalarsan uzunqulaqsız.

– Su tökürəm də… Dur, desəm durmaz, gedib-gələr öz özünə! Xeyir ola, inəyin xəstədi?

– Yox, Rum kəndinə öküzə aparmışdım.

– Hə!

– Rum öküzünün xidməti bahalı imiş.

– İyirmi qəpik. Üstündə də bir səbət alma, armud.

– Vay kafir, amma yaman soymuş səni ha!

– Öküzün orasından varlı olurlar, nə edəsən!

– Rəcəbin öküzünə niyə aparmadın?

– Heç soruşma! Niyə sənin Əminən başqasına vermədi də sənə verdi? Bu heyvanın da canı Rum öküzünü istədi!

Gənc, əsmər, pəhləvan quruluşlu Ənvər başını arxaya atdı, parlaq dişlərini göstərərək güldü:

– Allah qoysa, öküz balalayar.

– Allahın işidi bu, qarışa bilmərik. İnək deyərik, öküz çıxar, öküz deyərik inək. Bizim əlimizdədi ki? Allahın əmri ilə olur hər şey. On beş il əvvəl oğlan olsun deyə can atırdım, amma qız çıxdı. Yenə də dua etməliyik. Tanrı dinləyər, dinləyər, sonra kəsib biçər, necə doğru görərsə elə edər, onun əmri…

Battal Ənvər, ağappaq dişlərini göstərib gülərək, Bəkir Ağanı dinləyirdi. Aşağıda, tütün tarlasının içindəki cığırdakı uzunqulağı, yoldan çox uzaqlaşmışdı. İnək də, Bəkir Ağanın lakkırtısının bir xeyli uzanacağını görüb yolun kənarında başını kolların altına soxub təzə ot yeyirdi.

Bəkir Ənvərin geniş, sağlam çiyinlərinə, kişi əllərinə baxıb qısqanaraq ah çəkdi:

– Bizə də oğlan lazımdı, amma olmadı! – dedi.

Ənvər Bəkir Ağanın könlünü almaq istəyərək cavab verdi:

– Oğlan faydalıdır, düzdü! Amma qız da evin bəzəyidir, Bəkir Ağa!

– Elə qapağını tapana qədər bəzəyər. Sonra kim? Onun da zamanı gələr.

Ənvər bir neçə gündür könlündə daşıdığı gizli məsələni Bəkir Ağaya demək üçün fürsət tapdığına sevindi:

– On beş oldu, yəqin! – dedi.

Bəkir təsdiq edəcəkdi, bəli deyəcəkdi, amma boğazında qırıldı:

– Elə… yəqin elə. Bilmirəm dəqiq. Ya on dörd, ya on beş. Yoxsa on üç desəm? Bilmirəm dəqiq, qönçədir hələ…

Sonra birdən-birə Ənvərin Ayşənin yaşını soruşanda bir şeydən şübhələnmiş kimi:

– Bizim Ayşənin yaşından sənə nə, – dedi, – Yaşı at bazarında soruşurlar.

Sonra söhbəti başqa yana çevirdi:

– Bu gün bizim sahələrə çıxdınmı? Allah hava verdi, bu bir-iki həftəyə tütünləri yığa bilməsək işimiz fırıqdır. Köhnədən saqqallı kazaklar gəlib kəndlərdə iş axtarardılar. İndi onlar da görünmürlər, batdılar görəsən?

Ənvər ağ yenə güldü:

– Kaş ki, batardılar. Şükür Allaha, bizim kənd bu vaxtadək təmiz qaldı. Alma rusu yanına, alsan bəla olar, Bəkir Ağa!

– Eləmi?

– Xeyli vaxtdı ki, böyük oğlan Rəmzi Əsma xalanın gözünə girmək istəyir.

– Sən dedi-qoduya qulaq asma, Ənvər!

– Nə olar? On beş oldu, ağlaya-ağlaya gedəcək, tapsın özünə bir ailə. Çoban Səid Əlinin ailəsi pisdir ki? Rəmzi də meşə ağacı kimi sağlam, namuslu bir oğlandır…

– Səid Əlinin ailəsinə sözüm yoxdu. Amma bunun dillərdə gəzməsini istəmərəm. Qərib quşun ailəsını Allah qurar.

Battal Ənvər utandı. Birdən ağlına gəldi ki, indi – işlərinin qızğın vaxtı bunu danışmağın yeri deyil. Amma başladığı söhbəti də yarıda buraxmaq istəmədi.

– Dillərdə deyil, Bəkir Ağa! – dedi, – Dillərdə deyil… Bilirsən ki, Səid Əli bizə qohumdur. Eh, Rəmzi mənə dedi dərdini. Ayıbdırmı?

– Ayıbdır! Sən özünə bir arvad tapdın ki, qalxıb el-aləmi evləndirirsən?

– Hirslənmə, Bəkir Ağa, bu kiçik sözümə. Mən kimisə evləndirmək istəmirəm. Oğlan dərdini mənə danışdı, mən də sənə deyirəm. Kürəkəni Samsundan gətirəcək deyilsən ki! Verəcəksən kənddən birisinə…

– Kimə versəm verərəm, bəlkə də, heç verməərəm. Qız mənim, mal mənim, haqq mənim, sənə nə? Evində otur, rahat-rahat bax arvadına: tarlada isə bax uzunqulağının quyruğuna. Mənim işimə qarışma. Kiçik söz, hə? Milçək də bir şey deyil, amma ürək bulandırır.

Ənvər susdu, amma Bəkir Ağadan incimədi. Bu məsələni Bəkir Ağa ilə danışmağa nə yaşı çatırdı, nə də zamanı. Amma Ayşənin də Rəmzini sevdiyini, Rəmzidən başqasını istəmədiyini bilirdi.

Lakin Ayşə bunu atasına deyə bilməzdi, bu, onun sirriydi. Bu sirri Bəkirə anası Əsma aça bilərdi.

Ənvər bu işin sonunda qohumu Rəmzinin lehinə bitəcəyinə əmin imiş kimi güldü:

– Nəysə, gəncik, incimə, Bəkir Ağa! Yavaş-yavaş hər şeyin yerini də öyrənərik, sirrini də.

– Sirr yoxdu. Sirdaş axtarmaq sirri yaymaq üçündür. Bu sözü başqasının ağzından eşitsəm vurub gözünü partladaram. Həm sənin, həm Rəmzinin…

– Vay, vay!

– Baxaq onda “vay, vay!” – deyə bilərsənmi? Get uzunqulağının yanına. Əsəbiləşdirdin məni…

Bəkir Ağa doğurdan da hirslənmişdi. Addımlayaraq inəyinin yanına getdi, ikiəlli inəyin buynuzlarından tutub dərtdı, heyvanı aparmaq istədi. Amma inək başını yaşıl otlardan ayıra bilmirdi.

Bəkir əsəbdən titrəyən əlləri ilə ipi heyvanın buynuzlarına keçirtdi, yolu gedərək qışqırmağa başladı:

– Oha, oha… Partlayana kimi yeməyəcəksən ki! Qaldır başını otlardan… Oha!

Ətrafına baxdı, əsəbi gözlərilə Ənvəri axtardı. Amma Ənvər yox idi. İnəyini çəkə-çəkə yolun o biri tərəfinə keçdi, tütün tarlasına baxdı. Tarla yolunda gənc Ənvər iri addımlarla uzunqulağa tərəf gedirdi.

– Zəmanə insanlarıdı bunlar! – deyə, Bəkir dodaqaltı deyindi. – Dinə də, imana da, kəndə də, millətə də xeyirləri yox! Bir qızımız var, ona da göz qoydular artıq… Qız da hələ gül qönçəsi, ağzı süd iyi verir… Get, Məcik, get… Mən Rum kəndində öküzlə meşədə, tülkülər də bizim sahədə. Nə bilmişdin, Bəkir?! Evdə bir arvad var, bir qız! Çoban Səid Əlinin övladları bizim sahələrdə Ayşəyə baxırlar. İtsiz evə tülkü asan girər…

Günəş qıpqırmızı yamacın arxasına enirdi, əsmər göyün altında dənizin maviliyi göyərirdi. Uzaqlardakı su gölməçələrində, qamışlıqlarda, köhnə quyuların yanında axşamı salamlayan qurbağaların səsi eşidilirdi.

Üfüqün rəngi solurdu, bəzi pərdələrin arxasında yanan lampalar kimi orada-burada ulduzlar incə bənövşəyi rəngdə parlayırdı. Bütün günü Günəşin istisindən səmanı tərk edən buludlar indi

parça-parça bir-birinə yapışaraq göyə yüksəlir, sonra ayrılaraq ağ, buruq quzu dərisi kimi göyü və axşamı bəzəyirdilər. Dərələrdə sular, təpələrdə sərin yellər, yollarda səssiz gözətçilər kimi uzun sərvi ağaclar canlanıb yellənir, yer və göy həyatdan, insanlardan xilas olub nəfəs alırdı.

Axşamlar xoş idi, insanları özünə çəkən dərdləri, yorğunluğu unutduran bir qüvvə, dadlı bir boşluq vardı, axşamlar gecənin gözləri kimiydi – hər yeri görür, hər yerə uzanır, hər yerə dalırdılar.

İndi hər şey axşama təslim olurdu. Yalnız insanlar axşama arxalarını çevirirdilər. Onlar gündüz və Günəşin istisinin, soyuğun, qarın, ayazın, yağışın və küləyin uşaqları idilər. Torpağı görmək istəyir, min illərdir əlləri ilə ondan tutaraq yaşayırdılar.

Torpaq onları qırır, əzirdi, onlara min əziyyət çəkdirir, öldürür, amma onlar yenə də hər şeydən çox, özlərindən çox torpağı sevirdilər. Onları bu torpaqdan ayıracaq heç bir qüvvə yox idi. Hələ min illər burada yaşayacaq, yorğun bədənlərini bu torpaqların altına basdıracaq, ancaq onda canlarını göyə, səmanın sükut və rahatlığına təslim edəcəkdilər…

İnsanlar evlərinə qayıdırdılar. Kiminin kürəyində torpağın otu, kimində odun, kimi torpağından, işindən məmnun kimi dərdli, qara yorğun ayaqlarını sürüyə-sürüyə evlərinə qayıdırdılar. Çobanlar da artıq dağlardan enmişdilər. Yoxuşlu yollarda mallar boyunlarından asılı zınqırovlarını çala-çala, keçilər mələyə-mələyə pəyələrə qayıdırdılar.

Bəkir Qızıldaşa yaxınlaşanda düzənlikdə qalan bəzi evlərdə artıq lampalar yanırdı. Qaranlıq düşdükcə kənd daha canlı, daha səsli olur, hər yolda, hər su başında insanlar toplaşırdı. Əl-ayaqları, papaqları toz-torpaq içində olan adamlar yüksək səslə danışaraq, ya bostanlarını sulamaq üçün su növbəsi gözləyir, ya da sabahkı işlərini götür-qoy edirdilər.

Axşamın canlılığında qadınlar da kişilərdən geri qalmır, evlərin qarşısında, tarlalardan dönən ərlərini, oğullarını, heyvanlarını gözləyirdilər.

Bütün bu qadın, kişi, uşaq səslərinə qarışan heyvan səsləri daha qəribə olurdu: mal-qara pəyələrə yaxınlaşdığını hiss edir, bəzən yolun ortasında durub başlarını qaldıraraq evlərin qarşısındakı insanlara qəribə-qəribə baxaraq uzun-uzadı böyrüşürdülər. O ana qədər işlərini buraxıb evlərindən çıxmamış qadınlar unlu-xəmirli yaş əllərini önlüklərinə silib yollara çıxır, heyvanların başını tumarlayır, sanki uşaqlarıyla danışırmış kimi oxşaya-oxşaya isti və yağışsız havada evlərinin qarşısındakı çarmıxlara bağlayır, ya da hava dumanlı və ya gecə yağışlı olacağı halda tövləyə aparırdılar.

Bəkir artıq kəndin sərhədlərininin içindəydi. Laqqırtıya dayanmadan yalnız salam verib hal-əhval soruşmaqla rastlaşdığı adamların yanından keçib gedir, qaranlıq düşmədən evə çatacağına sevinirdi.

Yolun sol tərəfindəki qalın meşə ağaclarının altında salınmış və öz səssizliyi ilə vahimə yaradan qəbiristanlığı ötüb keçdi. Evi bir çağırış məsafəsində, bostanın arxasındakı budaqları damını örtən alma ağaclarının arasındaydı. Yamacın üstündəki, rəngi hələ tam solmayan üfüqdə görünən evin ağ divarları, sanki damı arxada qoyub ağacların arasından qabağa çıxmış, səssizlik və sükut içində çox qəribə görünürdü.

Bəkir, “Ayşə hələ sahələrdə olmalıdır, evdə olsaydı, qarşılayardı məni!” – deyə düşündü, bir az da irəlilədi. Evinin qarşısında geniş bostanı yoldan ayıran daş divara sıralanmış əncir ağaclarının altında, gözünə iki insan kölgəsi dəydi. Amma axşam o qədər qaranlıqdı ki, Bəkir onların kim olduğunu hələ ayıra bilmirdi. Biri bəzən yoldan çıxır, Bəkirin qarşısında gedən inəyə baxır, yenə əncir ağacının altına çəkilirdi.

Bəkir əncir ağacının altındakı iki nəfərin qadın olduğunu indi aydın görürdü. “Mənim Ayşəm anası ilə birlikdə deyəsən məni gözləyirlər!” – düşünüb, inəyin ipini daha yaxın tutdu, jaketinin qırağı ilə alnındakı təri sildi, inəyin başını oxşadı, dayanıb qadınlara baxdı, hansının arvadı, hansının qızı olduğunu seçmək istədi. Seçə bilmədi. Buna görə də Battal Ənvərlə danışdıqdan sonra içindəki əzabı daha dərindən hiss etdi. “Bəlkə qonşu qadınlardır!” – dedi.

Amma artıq özünü aldada bilməzdi. Ayşə yolun ortasından qaçaraq atasının yanına gəldi, inəyin ipini onun əlindən aldı. Məcikin buynuzlarından tutub alnından öpdü, yanağını heyvanın başına söykəyərək iri açıq gözləriylə atasının üzünə baxıb gülümsədi.

Alovlu örtüyünü yamaca sərmiş üfüq qaralan anda Bəkir qızının gözəlliyini sanki ilk dəfə gördü, özündən ayrılacaq qızının sevgisi ağrı olub, içinə doldu, ürəyində, "Gül desəm gül deyil, nur desəm nur deyil, qanımnan, ətimnən doğan bu mələk balasını əllərə necə verəcəm?" – dedi.

Bu axşam Ayşədə bir bayram əhvalı vardı. Yaşıl ipək geyimin içində gənc bədəni yaşıl Krım dağlarının ən tənha, ən sakit bir yerində tək böyümüş gənc bir şam ağacı kimi sağlam, nazlı və təzəydi. İnəyin başına söykədiyi yumru, alma kimi parlaq qırmızı yanaqlarından, uzun qara kirpikləri arasında yanan gözlərindən, atəşli dodaqlarından yaşamaq eşqi saçırdı. Krımın hər mövsümü necə gözəldisə Ayşə də elə idi: həm gülərkən gözəl, həm də ağlayarkən.

Bəkir əlində inəyin ipi ilə tövlə tərəfə gedən qızına baxıb yavaşca dedi:

– Mübarək torpaq, sənin Günəşinin altında hər şeyin gözəl olur, insanların da…

Və qəflətən qabaqda gedən qızını donunun ətəyində uşaqları yapışmış, üzünün rəngi saralıb-solmuş, əlləri quru, çatlaq və zavallı görmüş kimi oldu, qorxdu. Başını qaldıraraq dedi:

– Verməyərəm qızımı hər gələnə.

Amma bu sözlərinə görə özü-özündən utandı. Çünki bunu deyərkən çoban Səid Əlini düşünmüşdü. Səid Əlinin ailəsi yoldan keçənlərdən deyildi. Onsuz da kənddə yoldan keçən insan yoxdu. Qızını istəyirlərsə necə rədd edəcək ki?

İndi Bəkir günün bütün ağırlıq və yorğunluğunu qoca sümüklərində hiss edirdi. Amma hamısından ağır, hamısından acı olan qızının dərdi idi. Qızının düşüncəsindən xilas olmaq istədi, əlini yellədi.

"O, hələ balacadır. Kimsə istəməz. Dərdsiz başıma özüm dərd açıram. Ən böyük dərd bizim tarlanın tütünləridi indi. Tütünləri sahələrdən yığmayınca gözlərimi rahat bağlamayacam. Tütünlər arasına girsə, dəstələsə, şəhərə getsə, satılsa, Məcik də öküz balalasa, gəlsin o zaman Ayşəni istəyəcək cənab, çıxsın istəsin. Onda mən də fikirləşərəm bir az. Özümüz üçün dünyaya gətirmədik ki! Ənvərin dediyi kimi kürəkəni Samsundan gətirməyəcəyik ki!"

İndi Əsma da geri qayıtdı, Ayşənin yanında gedirdi. Bostana yaxınlaşdılar. Ayşə heyvanın ipini anasının əlindən alaraq çınqıllı dar bir yol boyunca tövləyə getdi.

Tamamilə qaranlıq çökmüşdü. Göyü bəzəyən ulduzlar çoxalmış, Ayı Dağın üstündəki Ay gümüşünü dənizin sakit sularına səpmişdi.

Bəkir evinin qarşısındakı bostana yaxınlaşdı. Önü açıq, üstü bağlı saçaqlı sallanan kəndirlərə bağlı salxımların, divarın kənarlarındakı güllərin xoş qoxuları axşamın sərinliyinə qarışaraq yorğun könlünü oxşadı. Çınqıl döşənmiş yolda yorğun addımlarını sürüyərkən solda – bostanın içindəki paxlaların arasında gözünə arvadı sataşdı.

– Arvad, niyə orada cin kimi gəzirsən? Millət su başında sıraya dayanıb. Artıq bizə su gəlməz bu gecə, çıx ordan, mənə yemək ver!

Bostandan Əsmanın səsi eşidildi:

– Bostana gir!

– İndi bostan doyurmaz mənim qarnımı. Acmışam dedim sənə.

Bəkir: "Bəlkə də arvad balqabaq kəsib, qaldıra bilmir" – deyə düşündü, döndü, bostana girdi. Ayaqların altındakı torpaq yaş olduğunu dərhal anladı, "gün boşa getməyib, bostan sulanıbmış!" – deyə sevindi.

– Kim suladı bostanı?

– Ayşə.

– Maşallah!

– Axşamüstü Battal Ənvər yoldan keçirdi, "Mənim suyumu götürüb bostanınızı sulayın!" – dedi. Eşq olsun Ənvərə, eynilə bir övlad kimi…

– Səid Əlinin qohumu olan Ənvər?

– Kənddə başqa Ənvər var ki? Əlbəttə, odur!

Arvadının bu sözləri Bəkirin içindəki əzabı yenidən oyandırdı, bostandan çınqıl döşənmiş yola dönərək: “Arı bal alacağı çiçəyi bilir!” – deyə mızıldandı. İçində kədərlə getdi, dəhlizdə oturdu. Evin içi boş və qaranlıq idi. Ayşə də gedərsə, bu ev həyatının sonuna qədər həmişə belə boş və qaranlıq olacaqdı. İçindən: “Verməərəm qızımı daha!” – dedi.

Tövlədə inəyə su verən Ayşə incə və şirin səsilə mahnı oxuyurdu, arvadı da soğan tarlasının kənarına çömbəlmiş, axşam yeməyinə göy soğan yığırdı. Qızı öz havasında, arvadı öz keyfində, ev sahibini sayan belə yoxdu! Bəkir dəhlizdə bir az səssizcə durdu, sonra incik səslə qışqırdı:

– Əsma! Bostanı burax, mənə bax, dedim sənə! Bostana baxmaq vaxtıdı indi? Qarnım quruldayır.

Ayşə atasına cavab verməyə hazırlaşaraq səsini yüksəltdi, mahnısını daha da sürətləndirdi. Bəkir tövlədən gələn mahnıda “çoban” sözünü eşidincə dinlədi:

– Ayşə! Nə mahnısı oxuyursan orada?

Ayşə atasının səsini eşitmirmiş kimi mahnısına davam etdi:

Baş çobana, balam, baş çobana,
Vermə qızını çobana.
Qızını versən çobana,
Soxar başını samana.

Bəkir dəhlizdən endi. Artıq kimə qışqıracağını, kimə səslənəcəyini bilmirdi.

– Ayşə, ay Ayşə! Sən də dişi porsuq kimi düşdün qaldın bostanda. Nədir o çoban mahnısı?

Ayşə hələ mahnısına davam edirdi:

Qarabaş qızım duz istər,
Çoban ağam qız istər.
Qarabaş quzuya duz yoxdur,
Çoban ağama qız yoxdur.

– Ayşə! Vallah, billah, bu qız ağlını itirib. Nədir bu çoban mahnısı? Millət yorğun-arğın tarlasından gəlir, bizim qız da çoban mahnısı oxuyur!

Bostandan Əsmanın səsi eşidildi:

– Nə olub? Keyfi yerində, inəyini gördü, sevindi, əlbəttə, mahnı oxuyacaq.

– İnəyə oxuyur mahnını?

– Kimə oxuyur, oxusun. Sən nə bilirsən kimə oxuyur! Könlündəkinə oxuyur. Könlündə çoban varsa çobana, dəmirçi varsa dəmirçiyə oxuyur.

– Sən mənə bostandan filosofluq eləmə! Bizim ev teatra döndü, deyəsən. Tütünümüz tarlada yatır. Mən inəyin arxası ilə qaçdım bütün günü. Oğlumuz yox, halımızı düşünsün.

Əsma ayağa qalxdı, yoldaşına yaxınlaşdı:

– Dua et Allaha, qızına yaxşı ər versin. Hər şey düzələr. Tarlada yatan bir sənin tütünün deyil ki, el-aləm də sənin günündədir.

– Amma belə hava…

– Hava Allahdandır. Allah biz kasıbları unutmaz. Nə bilirsən, bəlkə, bir ay belə olacaq. Mahnının da insana zərəri yoxdu. Madam ki, mahnı oxuyur, keyfi yerindədir, demək.

– Qarnım quruldayanda çoban mahnısı dinləyə bilmərəm.

– Gəl evə. Yeməyin hazırdı. Şirin ye, şirin danış! Ürəyinə çoban qurdu girdi bu axşam! Qızın dilinə çoban mahnısı gəlib, oxuyur da.

– İndicə könlündə demişdin.

– Könlün də dili var.

Bostanın yanındakı yoldan gəlib keçən kəndlilər eşitməsinlər deyə Bəkir susdu. Arvadına çoban Səid Əlinin oğlu Rəmzinin Ayşəyə göz qoyduğundan danışacaqdı, amma yenə dərdsiz başıma dərd açmayım deyə əlini salladı, məsələni unutmağa qərar verdi. Əsma da yenidən bostana girmişdi.

Bəkir içində bir ağırlıq yorğun addımlarını sürüyərək evinə girdi. Dörd göz evi də ağ divarları, çarpayı, döşəkləri, qaranlığa basdırılmış, Bəkir Ağanın içi kimi səssiz, soyuq idi.

Bəkir evinin səssizliyini hiss etmiş kimi içindən cavab verdi:

– Babamin evisən sən. Atam, babam sənin divarların arasında dünyaya gəldi. Nənələrimiz beşiklərimizin başında laylay söylədi. Mənim evim, yalnızlıqlar, səssizliklər içində buraxaram səni heç? Bəlkə evim, bəlkə bir az daha çox nəsə! Zamanı gəlsin, görəcəksən otaqlarında, çarpayılarında, xalçalarında, dəhlizdə, bağçanda nəvələrim qaçacaq, divarların arasında onlar sevinəcə, onlar oynayıb, onlar qışqıracaqlar. Sən, evim, quş ailəsı kimi olacaqsan, sabah axşam onların ötüşmələrini dinləyəcəksən.

Bəkir evilə danışmağa davam edirdi:

– Elədirsə, Ayşəni ərə ver. Ayşə uşaqlar dünyaya gətirsin, nəvələrin doldursun evi!

– Niyə tələsirik? On beş yaşı olmadı hələ.

– On altı oldu.

– Eləmi?

– Elə, elə! Mən hər şeyi bilirəm, hər şeyi xatırlayıram. Sən də xatırlayarsan, qoca! Özünü aldatma! Elə gizli-gizli oyunlar etmə mənə!

– On altı da olsa, gəncdir hələ.

– Gənc haa? Ağ, billur boynuna bax, sinəsinə bax, ombalarına, qıçlarına bax. Qızıl rəngli bədəni atlas yorğanın altına uzadarkən sən Ayşəni görmürsən. Zəngin vücudunu döşəyə, həsrətli yanaqlarını yastığa dəyərkən sən Ayşəni görmürsən. Sən qızındakı darıxmağı nə vaxtsa hiss etdinmi?

– Xeyr, xeyr!

– Qırx beş yaşlı adamsan. Dünyanı, insanları deyil, öz balanı belə eşitmirsən, eşitmək istəmirsən.

– Necə eşitmirəm?

– Yaşı on yeddi olan bir qızın qəlbini sən necə eşidərsən?

– On yeddi?

– On yeddi, on yeddi! Bilməz kimi soruşma. On yeddi il sən mənim divarlarımdan, divarlarımın gözləri olan rəflərdə parıldayan mis qablarda sirr saxlaya bilməzsən, qoca! Rəflərdəki o qablar hər şeyi gördü, hər şeyi xatırlayar. Keçmişin sirri, sənin sirrin bütün bu divarlara hopdu. Ən ağır, ən çətin, ən xoş gecələrinizi bu divarların arasında yaşadınız. Mən səni anadan olduğun gündən xatırlayıram. Sən dünyaya gözlərini açmadan mən səni gördüm. Divarlarımla, damımla səni qucaqladım. İstidən, soyuqdan, qardan, borandan, yağışdan mən səni qorudum. Beşiyin yanında sənə layla deyərkən zavallı ananın səsini mən də səninlə bərabər dinlədim. Sonra yavaş-yavaş böyüdün, ayağa qalxdın, yeriməyə başladın. Yaramaz bir uşaq idin, dəhlizdə sinəmi bəzəyən çiçəkləri yolurdun, taxtaları kəsirdin. Bunu bir gün mənim köhnə ustam, sənin atan görmüş, səni əməlli-başlı döymüşdü. Yadındadırmı, Bəkir Usta?

– Xatırlayıram, xatırlayıram…

– Mən də hər şeyi xatırlayıram. Sənin sünnət olduğun günü belə xatırlayıram. Atlasların üstündə Molla Rəcəbin atası, sənin ayaqlarını tutmuşdu, atan da başını. Dəllək də tavanın küncündə asılı heyvaları işarə edərək: “Bax oğlum, bax bu siçovula!” – deyə səni aldatmışdı. Sən küncdə heyvalara baxmışdın və… Yadındadırmı?

– Bəli.

– Amma böyüdükcə yaxşılaşdın. Bacıların və böyük qardaşların bu evi buraxıb başqa evlərə köçdülər. Sənin atan, mənim ustam öldü. Amma ölmədən əvvəl səni evləndirdi. Əsma da tam on yeddi yaşında idi onda. Bəxtiyardın deyilmi?

– Çox.

– Əsma da bizə köçdü, mənim ən yaxşı həyatım da o zaman başladı. Hər yanım gül kimi təmiz və qoxulu oldu. Əsma məni sildi, süpürdü, mənə baxdı, otaqlarımı təmiz etdi. Amma mən yenə də gözələm. Lampanı yandır, bir bax mənə! Mən çirkinəm? Qocaldım amma. Bu da sənə

görə. Damımın kirəmitləri kifləndi, saçaqlarım qaraldı, bir çox yerləri çürüdü. Hamısı sənə görə. Baxmırsan mənə, Usta! Amma yenə də Ayşəni evləndirməlisən. Ayşə uşaqlar dünyaya gətirməlidir. Ayşə uşaq doğmasa, mən çöküncə yeni evi kim quracaq, bu ocağın həyatı sönəcəkmi? Bu inadında davam etsən söndürəcəksən bu ocağı!

– Düzdü bu sözün, ev məsələsini çox düz dedin! Amma kimə verim Ayşəni?

– Çoban Səid Əlinin Rəmzisi pisdi?

– Pis deyil, amma nə desən de, çoban oğlu çobandı!

– Ay səni sərsəm! Tanrı hər kəsi bir, hər kəsi bərabər yaradıb. Yoxsa dinsiz oldun sən?

– Xeyr, xeyr, dinsiz deyiləm. Sərsəm də deyiləm, əksinə, ağıllıyam.

– Sərsəmsən!

– Ağıllıyam.

– Sərsəmsən!

– Qızına yaxşı ər tapmaq istəyən kimsə sərsəm olur?

– Bu kənddə pis adam var?

– Yox.

– Hərkəs bir-birilə qardaş deyil ki, Bəkir?

– Qardaşdı.

– Onda Rəmzini niyə xoşlamırsan?

– Xoşlayıram.

– Bəs məsələ nədədi?

– Rəmzi çoban oğludu.

– Çoban oğlu olanda nə olur?

– İndi dünya dəyişib.

– Dünya dəyişməyib, sən dəyişmisən.

– Yox, dəyişib dünya, dəyişib. Mən ağlım nəyi kəsirsə onu etməliyəm. Həm bu arada tütünləri yığmaq lazımdır. Hələ tütünləri sahəyə salaq, onda Əsma ilə başbaşa verib Ayşəni düşünərik. Əvvəlcə tütün…

Ayşə dəhlizdə yenə çoban mahnısı oxuyurdu. Amma Bəkir Ağa elə dərin düşüncələrə dalmışdı ki, Ayşənin səsini belə eşitmirdi. Yenə Ənvəri xatırladı. “Bu qız çoban mahnısından başqa ayrı mahnı bilmir?” – deyə əsəbləşdi:

– Ayşə, Ayşə! Nədir bu oxuduğun çoban mahnısı?

Ayşə dəhlizdə qəhqəhə çəkdi:

– Özünə gəl, atacan? Ha-ha-hay! Çoban mahnısının nəyi pisdi ki?

– Sus deyirəm sənə! Mənə elə arsız-arsız cavab vermə. Ürəyində çoban qurdu…

Amma davamını demədi. “Əl çək, Bəkir!” – deyə düşündü. Ayşə indi otaqda idi.

– Əvvəllər neçə dəfə bu mahnını oxumuşam, mənə əsəbləşməmisən, indi…

– Şey… sənə əsəbləşmədim ki… Bu otaq çox qaranlıqdı! –deyə Bəkir kəkələdi.

– Lampanı yandırsan dərhal işıqlanar.

– Elədir!

Bəkir Ağa əlini cibinə soxdu, kibrit çıxartdı, masadakı lampanın şüşəsini qaldırıb fitili yandırdı. Ağardılmış divarları, uzun rəflərdəki qabları, divarlardan asılı əlişi dəsmalları, küncdəki atlas yorğanları, döşəkləri, bütün sadə gözəlliyilə otaq işıqlandı. Bəkir Ağanın yanındakı qızı yumru yanaqları, parlaq sədəf dişləri, kor kimi gözləri ilə güldü. Sanki bu gülüşü ilə atasının içindəki çətinliyi söküb atmaq istəyirdi.

Bəkir Ağa ocağın yanındakı uzun ağ tüklü keçi dərisinə oturdu. Danışmırdı, qızına belə baxmırdı. Ayşə asta səslə dedi:

– Yorğunsan, ata!

– Dünya qədər yol getmişəm. Günəş də əməlli-başlı yandırdı bu gün. Sən sahələrə getdinmi?

Ayşə atasının qarşısına diz çökdü, Bəkir Ağanın çarıqlarını çıxardaraq:

– Xeyr, – dedi, – mən getmədim, anam getdi.

– Səid Əlinin oğulları kömək etməyə çıxmışdılar bizim sahələrə, eləmi?

Ayşə başını qabağa əydi, yavaşca cavab verdi:

– Bəli, ata. Xatırlamağa gəlmişdilər. Öz işləri çox geridəymiş.

– Elədir. Çox şükür. Öz tütünləri tarlada yatarkən bizə köməyə gəlməzlər ki!

– Böyükləri Rəmzi deyib ki, Ağama deyin, onu köməksiz buraxmarıq.

– Eləmi? Rəmzi…

Əlində qablar, ağac qaşıqlarla otağa Əsma girdi. Ayşə atasının çarıqlarını çıxartmışdı. Əlində çarıqlar dəhlizdə gedərkən, Bəkir Ağa qızının boyuna, buxununa, çiyinlərinə baxıb, düşündü: "Bəlkə də vaxtı gəldi verməyə".

Əsma ərinin üzündə bir şeylər oxumuş kimi, Ayşənin çıxdığı qapıya tərəf baxdı, qızının dəhlizdə olduğuna əmin olunca üzünü ərinə çevirdi:

– Sən kefsiz qayıtdın bu axşam!

Bəkir Ağa bir an cavab vermədi, nədən bəhs edəcəyini heç yaxşı bilmirdi. Sözə Battal Ənvərdən eşitdiklərindən başlayacaqdı, amma bu fikrindən dərhal imtina etdi. "Uşaq-muşaq laqqırdısıdı bu! Ayşənin ağılında ər yoxdu hələ!" – deyə düşündü.

Əsma Ayşə dəhlizdən otağa gələr deyə qapıya təkrar bir göz atdı, sonra ərinin üzünə baxaraq asta səslə soruşdu:

– Yəqin, rum öküzündən məmnun qalmadın?

– Onu get inəkdən soruş, mən nə bilim!

Əsma əlini ağzına qoyub qısaca güldü:

– Of, qırx beş yaşlı insanın dediyinə bax!

Amma bu kiçik və günahsız söz ürəklərinə dolmuş dərdli axşamın çətinliyini sanki yumuşaltdı. Bəkir bütün günü isti Günəşin altında inəyinin arxası ilə gedərkən hələ arvadının da evdə onu həsrətlə gözlədiyini düşündü, yorğun vücudunda şirin ürpərtilər hiss etdi. İndi qızını unudub gülən gözlərilə arvadının üzünə baxırdı:

– İnəyin işi öküz ilə, bizim işimiz…

Əsma ərinin nədən danışdığını anlamağa vaxt tapmadan, Ayşə əlində mis ləyənlə otağa girdi.

– Bizim işimiz tütünləri tarladan yığmaq!

Bəkir Ağa indi ciddiləşmişdi. Gah arvadına, gah qızına baxır, sinəsini qabartaraq danışırdı.

– Mən səhər erkən qalxım. Allahın iznilə dərə başından başlar Günəş Ayı Dağın zirvəsində olmadan armudlara qədər çıxaram. Ayşə də səninlə sahələrda qalsın. Atın yanında getməyə hacət yox. Battal Ənvər bizim tarlanın yanından keçir. Öz uzunqulağı ilə bizim atı da idarə edər. İndidən gedib qonşulara yalvarmaqdansa əvvəl əlimizdən gəldiyi qədərini özümüz edək. Bitirsən nə əla! Yəni bacardığımız qədər, sonrasına Allah kərimdi!

Bəkir Ağa yanında ayaqda dayanan gənc sağlam qızına baxdı. Qızının özünü cahil bir kəndli hiss etməməsi üçün, bəlkə də qızı ilə arvadının yanındakı etibarını yüksəltmək məqsədi ilə:

– Biz zəngin deyilik, əlimizdə nə var? – deyərək, sonrada Molla Rəcəbin sözlərini əlavə etdi, – Yədullah leysə lil-insani illa mə sea!

Atasının başa düşmədiyi bu sözləri Ayşənin çox xoşuna gəldi. Dirsəklərinə qədər çəkilmiş ağır qalın və çalışqan əllərinə qabdan su tökərkən soruşdu:

– Mənasını deyərsən, atacan?

– Yedullah, yəni Allahın qüdrəti. Biz kəndlilərin çalışmaqdan başqa çarəmiz yoxdur, qazandığımıza şükür etməliyik.

– Kommunizm kimi desən, ata!

– Komolizma?

– Komolizma yox, ata, kommunizm!

– Eeeh, komolizma olsun! Amma komolizmanı ruslar uydurublar. Madam ki, ruslar uydurublar, bizim millət uymaz.

– Xeyr, ata, kommunizmi ruslar deyil, almanlar çıxardıblar. Kommunizmin atası Karl Marksdır.

Bu arada Əsma da sözə qarışdı:

– Dünya qədər yeni şeylər öyrəndi bizim Ayşə! Bax, səni belə susdurdu. Kala Malanın nə olduğunu bilirsən sən? Əlbəttə, bilməzsən!

– Bilirəm.

– Nə bilirsən!

– Bilirəm dedim sənə!

– Ellezi halâk-al-mevte ve-l-hayate… Sən bunu bilirsən, amma Kala Malayı bilmirsən.

Ayşə başını arxaya atdı, bir qəhqəhə çəkdi:

– Ay ana, Kala Mala deyil, Karl Marks!

– Aman, aman, dilim dönmür, Kala Mala olsun!

Ayşə əlindəki dəsmalı atasının dizinə qoydu, ləyəni götürüb dərhal dəhlizə çıxdı, əlində bir qəzet tez geri qayıtdı. Masadakı lampanı atasının yanına yerləşdirib, qəzeti açdı:

– Bax, ata, Karl Marksın şəkili.

– Bax, dedim axı sənə, rusdur!

– Rus deyil, ata!

– Rusdur, rus! Mən tanımıram ki?

– Ayşədən yaxşımı biləcəksən?

– Bilirəm.

– Amma almandır.

– Saqqalına bax! Almanda belə saqqal nə gəzir? Rusdur, vəssalam.

– Xeyr, atacan. Vallahi, almandır. Özüm oxudum.

– Tövbə de! Qəsd etmə! Almandan belə komolizma kimi şeylər çıxmaz. Saqqalından başa düşdüm mən… Ya rusdur, ya yəhudi.

Bu söhbət daha çox uzanacaqdı, əgər Əsma böyük bir qabda buğlana-buğlana ətli paxla şorbasıyla otağa girməsəydi:

– O Kala Malaları buraxın indi, keçin ətli paxlanın başına! Biz kasıbların qarnını nə Kala Mala doyurar, nə də komolizma. Yeməyinizi yeyib Allahın verdiyinə şükür edin. Torpağımız var, suyumuz var. Nə lazım daha bizə?

Artıq otağı örtmüş axşamın kölgələri ilə sarılı, lampa işığına toplanmış otururdular, süfrədə dumanı üstündə paxla çanağı dururdu. Üçü də pıçıltı halında bir-bir "bismillah" deyərək yeməyə başladı. Yeməklərini səssizcə yeyib, ata torpaqlarına baxan kimi iftixarla süfrələrinə baxır, yorğunluqlarını gizləyərək Allahın verdiyinə şükür edirdilər…

2

Səma ağarmağa başlamışdı. Ayı Dağının təpəsi duman içindən çıxmış bir gəmi kimi görünürdü, səhər yavaş-yavaş torpağa enir, dənizə uzanan evlərin damları qara kölgələrdən qurtularaq ağarırdı.

Bəkir dəhlizə çıxanda dənizi samaya bağlayan bənövşəyi üfüqdə parlaq bir ulduz keçən gecəni uğurlayıb, gələn səhəri salamlayır, hələ də parıldayırdı. Amma onun da parıltısı çox davam etməyəcəkdi, çünki Ayı Dağın arxasındakı qızarmış üfüqdən Qızıldaşın tütün tarlalarına, çəmənlərinə, evlərinə gözəl səhər gəlirdi.

Bəkir Ağa yeməyini yeyən kimi yatmasına baxmayaraq oyanmış, yataqdan gücbəla ilə qalxmışdı. Battal Ənvərdən eşitdiklərini heç düşünmədiyi halda ürəyində bir sıxıntı hiss edir, dünən getdiyi yolun bütün ağırlığını bu səhər sümüklərində duyurdu.

Dəhlizin taxta pilləkənlərini enib solda tövlənin qapısını açıq gördü.

– Ay Əsma, sənsən tövlədə?

– Kim olar başqa? Kəndə Yaltadan oğrumu gəldi?

Bəkir tövləyə tərəf getdi, hələ çatmamışdı ki, dəhlizdən Ayşənin səsi gəldi:

– Ana, Məcikin muncuqları hardadı?

Dönüb qızına baxdı, bu səhər daha tez qalxdığını sandığı üçün qızını dəhlizdə görüncə çaşdı.

– Xoruz kimi bannama! Bu saatda qadın qismi yatağında yatar, üstəlik də yuxu görər… Kişinin işi kişinindir, siz isə…

– Oğlumuz yoxdu deyə, kədərlənirdin dünən axşam, atacan. Mən də bir kişi kimi işə yaramıram?

– Zır-zır etmə, evə gir, dedim sənə!

Əsma Məciki tövlədən çıxarıb divarın yanına bağladı.

– Nədir səhər-səhər bu səs-küy, canım? Əsma, Ayşə qızı niyə qaldırdın tezdən? Artıq qaraçı tayfası olduq?

Əsma ərinin sözlərini eşitmirmiş kimi dəhlizdə səssizcə dayanan Ayşəyə tərəf çevrildi:

– Muncuqları duası ilə bərabər döşəyin altındadır. Zınqovurunu da gətir!

Sonra ərinə döndü:

– Zəhmətsiz mal yeyilməz. Dünən axşam Allahın verdiyi bu havada “tütünləri yığmasaq işimiz fırıqdır” deyə sifətin kül-əhəng olmuşdu. Səhərə qədər kirpiyimi qırpmadım.

– Dedimsə dedim, siz də niyə döşəklərinizdən qaçdınız? Elə bil, yanğın bacanı qucaqlamışdı!

– Bacanı sarmadan çarə tapmalıyıq. Sən get dərə başından qırmağa başla. Biz də Ayşə ilə sahələrə gedək. Battal Ənvərdən də xahiş et, öz uzunqulağına baxarkən bizim ata da baxsın. O baxar. Qızıl kimi insandır. Səhər işin bərəkəti çox olur.

– Hey, komandir kimi qışqırma. Mən işimi bilirəm.

– Əsəbləşmə, zarafat etdim, bütün aləm eşitdi səsini…

Ayşə dəhlizə çıxdı:

– Tapdım, ana!

– Bura gətir. Zınqırovu da.

Ayşə anası ilə birgə Məcikin boynuna yaşıl muncuqları və zınqovuru bağlayarkən, Bəkir Ağa mızıldaya-mızıldaya tövləyə girdi. Tövlə olduqca qaranlıq idi, isti kübrə qoxusu gəlirdi. Bəlkə arvadının səhər-səhər bu qışqırığı, hələ ürəyini gəmirən yaş məsələsi – gizli bir başqa səbəb üzündən, Bəkirin könlü heç rahat deyildi bu səhər.

Bəkir elə düşünərək atı tövlədən çıxarmaq istəyirdi, at isə yeri eşəliyir, diqqətini çəkmək üçün sahibinin çiynini, arxasını itəliyirdi. Qapıda arvadı qışqırmasaydı, Bəkir hələ çox fikirləşəcəkdi.

– Heyvana azanmı oxuyursan tövlədə? Üfüqlər qızardı, günortaya gedəcək deyilsən ki tarlaya!

Elə bu vaxtda atı da arxadan dürtmələdi.

– Arı sancsın səni! Biri qabaqdan, biri arxadan, dəli edəcəklər adamı. Gəl, tələsirsənsə aparım səni işə!

Amma Bəkir heç tələsmirdi. Əllərində atının ipini tutmağa belə gücü qalmamışdı. Atına baxıb dedi:

– Mən də zəifləmişəm haa!

Atı çölə çıxardı. Sonra yenə tövləyə girib tütün səbətlərini, orağını, baltasını, ipini, köhnə paltarlarını, yəni tarlada lazım olacaq şeyləri çölə çıxartdı. Qızı və arvadı hələ Məcik ilə məşğul idilər. Məcik dünən Rum öküzündən döndü deyə, bəlkə də səhərin sərin və şirin olmasından, Əsma da bu səhər həmişəkindən daha şən, daha canlı idi. İşin birini bitirib dərhal ikincisinə başladı, işləyərkən də hərdən ərinə və ya qızına əmrlər verirdi.

– Ayşə! Çobana yaxşıca izah et Məcikin halını. Çöllərdə göz-qulaq olsun, heyvandan uzaqlaşmasın, gözdən qaçırmasın. De ki, balalayanda, gözaydınlığına gəlsin!

Ayı Dağın arxasındakı qızılı rəng tündləşirdi, dənizə uzanan evlərin nəmli damları gecədən qurtulub Günəşi gözləyirdi. Hər evdə, Bəkir Ağanın evindəki kimi bir hazırlıq var idi. Hər qapıdan, hər bağçadan, hər dəhlizdən bir səs, bir səsləniş, yolların daşlarında nal səsləri eşidilir, keçilər mələyir, yuxulu inəklər başlarını qaldıraraq uzun-uzun böyürürdülər.

Üfüqə aldanıb göy ağardıqca insanlar da vaxtın yaxınlaşdığını evdən-evə, insandan insana bildirirmiş kimi, daha yüksək, daha sürətli səslərlə danışır, Günəş doğulmadan evlərindən ayrılıb

tarlalarına getmək istəyirdilər. Təpələrdə çobanlar heyvanları gözləyərkən, kəndin içində yollar sıxlaşırdı, evlər get-gedə boşalırdı.

Artıq gündüz olmuşdu, heyvanlar başlarını torpağın yaşıl otlarına endirmişdilər. İnsanlar əlləri, qəlbləri və ümüdləri ilə torpağa əyilirdilər. Qızıldaşın bütün həyatı torpağa bağlanırdı. Yüz ildən bəri atalarının, babalarının ayaqları ilə açılmış yollarda elə sıxlıq, elə canlı, təcrübəli bir hərəkət var idi ki! Hamısı da sanki bir-birlərini qovur, bir-birlərindən daha əvvəl tarlalarına çatmaq, torpaqlarına sarılmaq istəyirdilər.

Kənd tezliklə boşalır, evlər sükuta qərq olurdu. Qabağı çiçəkli dəhlizlərdə səksən-doxsan yaşında, ağ başıbağlı nənələr, uzun əl ağaclarını tutan ağsaqqal babalar məsud, bəxtiyar, tarlalarına gedən övladlarına baxırdılar. Dəhlizlərə açılan otaqların qapılarını açıq qoyurdular, çünki oğurluq eşidilməmiş bir şeydi, evlərin qapısını kilidləmək, bağçaları hündür divarlarla ayırmaq kəndlərində çox ayıb sayılırdı. Yol üstündəki evlərin açıq qapılarından otaqlardakı əşyalar görünürdü, kimsədən sirr saxlanmırdı. Birinin halı ortalıqda müəyyən idi, o birindən şikayətçi deyildi. Bərəkətli illərdə varlığa sevinir, Allahın verdiyinə şükür edirdilər, qıtlıq olsa da yanır, “aza qənaət etməyən çoxu tapa bilməz!” – deyib ayaqlarını yorğanlarına görə uzadaraq yaşayırdılar.

Ayşə Məciklə kənddən çıxanda Qızıldaş tamamilə boşalmışdı. Ayşə indi Gəlinqayaya yaxınlaşmışdı, buradan evlərini, kəndini, tütün sahələrini, dəniz sahilinə qədər uzanan tütün tarlalarını, hətta tarlasının kənarında işləyən atasını da görə bilirdi.

Kənd boş və səssiz idi, lakin artıq qəribə deyildi, çünki gündüz olmuşdu. Evlərin damlarında, köhnə quyuların ətraflarında qaranquşlar, yol kənarlarında çör-çöpün arasındakı müxtəlif quşlar ailə qurur, tövlələrin qarşısındakı kübrə yığınlarından çoxlu toyuqlar yalnız özlərinin başa düşdüyü bir dillə danışaraq gəzişir, dəhlizlərin qabağındakı çiçəklərdə arılar uçuşur, yaşıl səssiz ağacların kölgəsində babaların ətrafını çevirən Qızıldaş evləri, yolları, bağçaları indi arılar, quşlar, kəpənəklər, toyuqlar diyarı olmuşdu. Yollarda nə bir insan, nə bir heyvan vardı. Yalnız yolda bir-iki saatdan bir avtomobil görünür, xorultular, bəzi yerlərdə pat-pat səsləri, yolun kənarındakı bağlarda, bağçalarda duman pərdəsi buraxaraq, Qızıldaşın içindən keçib gedirdi.

Gəlinqayanın yanından bütün bu yollar yaxşıca görünürdü, amma nə qədər çoxdular! Qəlbdən çıxan qan damarları kimi bu yollar Qızıldaşdan çıxır, hər tarlaya, hər sahəyə, hər bağa, hər bağçaya, çaylara, su başlarına, dəniz kənarlarına uzanırdı. Bəzi yerlərdə yollar kəsişir, bəzi yerlərdə isə bir-birinə qovuşmayan iki zavallı sevgili kimi yan-yana uzanıb gedirlər.

Min il əvvəl bu torpaq bu insanlara sanki Tanrı tərəfindən verilmişdi. Hər torpağ parçasının alçaq divarlarla nə zaman hasara alındığını kimsə xatırlamır, kimsə bilmirdi. Amma nəsildən-nəsilə keçən torpaqlara uzanan yolları hansı ailənin, hansı nəslin ayaqlarının açdığını hər kəs bilirdi, hansı yolun kimə aid olduğundan kimsələr şübhə etmirdi.

Çobanın heyvanları otardığı təpə bir çağırış məsafəsindəydi, amma Ayşə Məciki yormamaq üçün heç də tələsmirdi. Arada durub kəndə, tütün sahələrinə baxır, Günəşin gümüş şüaları altında titrəyən dənizi seyr edirdi. Dəniz sahilinə getməyi nə qədər istərdi! Amma təkbaşına gedə bilməzdi, çünki işlərin ən qızğın vaxtı idi. Həm də qızların təkbaşına dənizə getməyi qadağan olmasa da, adət deyildi. Ayşə də indi dənizin bu qədər yaxın, bu qədər gözəl, bu qədər dost olmasına baxmayaraq gedə bilməzdi. Tütünlərin tarladan sahələr yığılmasını işləri qurtarandan sonra kəndlilərlə getməklərini gözləyəcəkdi. Həm hamılıqla getmək daha xoş, daha əyləncəli olurdu. Arabaları ilə kəndin kənarına yığışır, qızlar atların yəhərlərinə çiçəklər taxır, çalğı, şənlik arasında dənizə gedirdilər. Analar sahildə qayaların arasında kabab, qəhvə hazırlayır, gənclər dənizdə üzür, axşama yaxın yenidən arabalara minib mahnı oxuyaraq, şən, məsud evlərinə dönürdülər.

Eh, Ayşə də tütünlərin yığılıb bitməsini gözləməli idi. Bunu təkcə Ayşə yox, bütün kənd gözləyirdi. Yaz işləri bitdikdən sonra kəndə yenidən həyat gələcəkdi. Dağın başı ağ qarlarla ağararkən evlərin bacaları yenidən qaralacaq, qış gecələrində evlərdə əyləncələr olacaq, qızlar, gənclər qonşu evlərində yığışaraq oyunlar oynayacaqdılar. Evlənmə yaşına çatmış qızlar da az deyildi, işləri bitirincə, gələn nişan və toylarda olacaqdı. Ayşə düşündü: “Görəsən kimlər evlənəcək?”.

Barmaqları ilə qızları saydı: Cəmilin Zeynəbi, Çilingirin Xədicəsi, Barmaqsızın Təvhidi... Üçü də on altı, on yeddi yaşlarındadılar. Özünü də düşündü. Üzü qızardı, gözlərini aşağı salıb dayandı. Sonra Məcikə yaxınlaşaraq yumru yanağını Məcikin boynuna söykədi, bir şey gözləyən kimi səssizcə uzaqlara baxdı. Qara gözlərini örtən uzun kirpiklərinin arasında yaşlar toplanırdı. Ağlamaq istədi, amma niyə, nə səbəbdən ağlayacağını özü də bilmədi. Çünki könlü məsud idi, həyatı və insanları sevirdi, amma yenə də gözləri dolurdu.

Əvvəlcə ata evindən ayrılan təzə gəlin kimi ağlamaq, yanaqlarından aşağı damla-damla isti yaşlar axıtmaq istədi, sonra gülümsədi – astadan güldü. Sonra başını arxaya çevirib güldü, yolun kənarındakı kollardan bir budaq qoparıb Məciki qovaladı.

Sağda yoldan çox hündürlükdə bir təpə vardı. Təpənin arxası dağların çəmənlik ətəklərinə bitişirdi, önü isə uçurum. Təpənin bəzi yerləri qara torpaq, bəzi yerləri qırmızı, boz-qara qayalar. Ayı Dağın üstündəki Günəş şüalarını bu uçurumlara səpdiyi zaman müxtəlif rənglər daha da müxtəlif görünürdü. Qızıldaşlılar kim bilir niyə qəribə və qorxunc olan bu təpənin kənarında atlarını sürətlə keçirtmişlər.

Ayşənin durduğu yerdən baxanda təpənin tam kənarındakı bu yol insanın başı üstündə sanki bir rəf kimi asılı görünürdü. İşin qəribə tərəfi isə – Ayşənin olduğu yolla təpənin kənarındakı yol arasında bir qaya vardı, qayanın alt hissəsi qırmızı, üst tərəfi isə boz idi.

Qızıldaşlılar bu qayaya Gəlinqaya deyərdilər. Keçmişdə Qızıldaşa yaxın Dərmən kəndində çox gözəl bir qız varmış. Qızıldaşlı bir çoban bu qıza aşiq olub, qız da çobanı sevirmiş. Çoban qızın yaşa dolmağını gözləyib və qızı istəməyə gedib. Amma qızın atası çobanın bu istəyini rədd edib, qızını Qızıldaşlı bir varlıya verib. Gəlin Dərmən kənddən gələrkən Qızıldaşın igidləri bu təpənin üstündə faytonun qarşısını kəsib, gəlindən dəsmal istəyiblər, gəlin atlılara dəsmal verəndə aralarında sevdiyi çobanı görüb, ürəyi dözməyib birdən özünü faytondan atıb. Amma uçurumun dibinə düşməyib, yarı yolda daş qayaya ilişib qalıb. O gündən sonra Qızıldaşlılar bu qayaya Gəlinqaya deyirlər.

Ayşə hər səhər Məciki çobana apararkən durub Günəş işığında uçurumlar rəngdən rəngə dəyişərkən qaya olmuş gəlinə baxmağı çox sevərdi. Gəlinin artıq daş kəsildiyindən sonra bir daha diriləcəyindən şübhə edirdi, amma yenə də durub Gəlinqayaya baxıb, ürəyində dua edrrdi: “Allahım, onu dirilt və zavallı çobana ver!”

İndi də uçurumdakı gəlinə baxırdı ki, təpənin kənarındakı yolda bir atlı gördü. Hava sakit, səma mavi və buludsuz idi. Təpədəki yol çox yüksəkdə olduğundan, Ayşə atlını kim olduğunu seçə bilmədi. At tərpənmirdi, insan isə heyvanın üstündə canlı bir heykəl kimi durmuşdu. Ayşə düşündü: “Kimdir o, görəsən?”. Çobanlardan biri idi, bəlkə də. Amma bu saatda çobanlar heyvanları buraxıb belə yüksək təpələrə çıxmazdılar. Ayşə: “Yaylaq çobanlarından ola bilər!” – deyib gedərkən, atlı birdən atını sürdü, təpənin kənarındakı yolu ildırım kimi keçdi, solda qara torpağa düşdü, bir toz buludu qaldıraraq aşağı, Ayşəyə tərəf gəldi.

Atlının gəldiyi yol çox təhlükəliydi. Enişin qaya yerlərində heyvan qabaq ayaqlarını torpağa batırırdı, başını sallayıb getmək istəmirdi. Bəzən də yenə qabaq ayaqlarını torpağa batırıb, qıçı üstə otururdu, qulaqlarını dikədib solurdu. O zaman təcrübəli atlı əsəbləşirdi, heyvanın başını sağa-sola çəkir, yenə də getmək istəmədiyini başa düşüb qamçı ilə atı zorla getməyə məcbur edirdi. At yavaş-yavaş qabaq ayaqları ilə sola dönür, atın qorxusunu keçdiyini düşünüb, heyvanın başını birdən sağa çəkir, at kişnəyir, üç-beş dəqiqə içində atıyla birlikdə toz-duman içində Ayşənin gözlərindən silindi. Sonra yenə göründü, inadkar atı qamçılayaraq Ayşəyə tərəf çapdı.

Atlı toz buludunda itəndə Ayşə qorxu ilə gözləyirdi, atlı atıyla bərabər yamacdan yuvarlanacaq, Məciki itələyəcək, özü də öləcəkmiş kimi titrəyirdi. Atlı toz buludundan sağ-salamat çıxdıqca balaca əlini ağzına tutaraq: “Görəsən kimdir bu?” – deyə soruşurdu özü-özünə.

İndi atlının papaqlı olduğunu yaxşı görürdü. Qırmızı köynək geyinmişdi. Sinəsində parlayan bir şey isə çoban cüzdanı idi, deyəsən.

Ayşə: “Ya çobandır, ya da dəli!” – deyə düşündü. Amma çoban idi. Başındakı qəhvəyi papağı çoban papağı olduğunu göstərirdi. Ayşədən xeyli uzaqda Məcik sürətli gələn atlının təhlükəsini hiss

etmiş kimi qorxu ilə yerində dönüb dururdu. Ayşə Məcikin qorxduğunu ancaq indi gördü. Bir an atlının qəzaya düşmə ehtimalını unudub qaçdı və Məcikin boynunu qucaqladı:

– Qorxma, Məcik! Qorxma, baxma o sərsəmə sən! Qorxma, qızım, qorxma. Vücudumla mən səni qoruyaram. Sən ölsən, mən də səninlə bərabər ölərəm. Qorxma, qızım, qorxma!

Başını yenidən atlıya çevirdi, amma artıq qorxuya səbəb yox idi, çünki adam sağ-salamat düzənliyə çıxmış, atını dördnala Ayşəyə tərəf çapırdı. İndi Ayşənin də qorxusu keçmişdi. Artıq indicə ağır, sakit havası birdən dəyişdi, hardan gəldiyini bilmədiyi sərin külək əsməyə başlamışdı. Ayşənin bu küləkdə üzü, könlü oxşanırdı.

Atlı bir ildırım sürəti ilə gəldi, bir az kənarda dayandı. Atlının kim olduğunu görüncə, Ayşənin içindən qəribə bir titrəmə keçmişdi. Qarşıdakı atlı çoban Səid Əlinin Rəmzisi idi. Qəhvəyi papağı, dar qırmızı köynəyin içindəki pəhləvan vücudu, cüzdanı, çoban paltarında Rəmzini qarşısında görüncə Ayşə özünü itirdi. Çünki Rəmzi ailənin ən böyük oğlu idi, işlərin bu qızğın zamanında çobanlığı qardaşları edirdi.

Rəmzi atdan düşdü. Ayşə Rəmzi yanına gələcək deyə həm ürkdü, həm də könlündə nəsə hənirti hiss etdi. İki addım geri çəkildi. Rəmzi yaxınlaşsa yazıq Ayşə nə edəcək, nə deyəcək? Üzü qızardı, durmadan dualar edirdi, amma nəyə dua etdiyini özü də yaxşı bilmirdi. Bəlkə, Rəmzinin daha yaxın gəlməməsi, kəndlilərin onun Rəmzi ilə Gəlinqaya yanında görməmələri üçün dua edirdi, Rəmzinin uzaqdan danışmasını istəyirdi. Könlü bir-birinə zidd hislərlə doldu, nə edəcəyini bilmirdi. Rəmzi niyə gəlmişdi, niyə?

Rəmzi olduğu yerdə dayandı, ətrafa baxıb başını sinəsinə endirdi, üzü qızardı, arada üzünü qaldıraraq bir şeydən çəkinən kimi gizlicə Ayşəyə baxır, bir şeylər demək istəyirdi, amma deyə bilmirdi.

Ayşə də danışmaq istəyirdi, amma çox çətin idi danışmaq.

Rəmzi kömək gözləyən Məcikə baxdı. Amma Məcik bir sirdaş kimi başını yol kənarındakı cır fındıqlarının yarpaqları altına soxmuş, ot yeyirdi.

Səssizlik uzandıqca Rəmzi sıxıldı. Hələ indicə təpədən Ayşəyə baxarkən deyəcəklərini hazırlamış, sıraya qoymuşdu. Könlündə nə varsa hamısını demək fikri ilə təpədən enmişdi, amma indi… İndi Rəmzi səssiz idi, niyəsini bilmirdi.

“Hələ indicə təpədən Ayşəyə baxarkən “şirin söz ilanı ailəsindən çıxarar” deyən sən deyildin, Rəmzi? Ayşə qarşındadı. Dünyanın ən gözəl çiçəyi kimi qarşında. Niyə danışmırsan? Niyə? De dərdini, de, Rəmzi! Sevgi başqa bir bəladır, de, izah et hər şeyi Ayşəyə!”

Amma deyə bilmirdi. “Qızın yolunu kəsdin, ana-atasından gizli qızla danışmaq istəyirsən. Alçaqsan, Rəmzi, xainsən!” – deyə özü-özündən nifrət edirdi. Yenidən atını aşağı sürməyə razı idi, Gəlinqayanın üstünə çıxıb uçurumdan atmağa razı idi, yetər ki, Ayşə yolunu kəsdiyini düşünməsin! Qaçmaq, Ayşənin gözlərindən gizlənmək istəyirdi.

Amma bu qədər utanmağa səbəb yox idi, çünki balaca qardaşları bu səhər şəhərə getmişdilər, heyvanları otlağa Rəmzi götürəcəkdi. Ayşə ilə görüşməkləri sadəcə bir təsadüf idi.

Bu düşüncə ilə fərəhləndi, amma Ayşə ilə danışmağa yenə də cəsarət edə bilmədi. Ancaq Ayşə Məcikə tərəf gedərkən, Rəmzi cəsarətə gəldi, yavaşca dedi:

– Ayşə, Məciki mənə tapşır, qardaşlarım Yaltaya gediblər, heyvanları bu gün mən otaracam.

Ayşə dayandı, gözləri yerdə, üzü qızarmış, eyni asta səslə cavab verdi:

– Yaxşı, Rəmzi Ağa!

Rəmzi indi danışmağa hazır idi, amma Ayşənin utandığını gördü. “Az danışmaq bəlkə də çox danışmaqdan yaxşıdı!” – deyə düşünərək atını Məcikə tərəf sürdü.

Ayşə qəlbində birdən bir ağrı hiss etdi, qəbahətli kimi başını sinəsinə əydi, döndü, sahəyə gedəcəkdi, amma gedə bilmirdi. Başını çevirdi, qayaların arasında atının üstündə Məciki aparan Rəmziyə baxdı. Qışqırmaq, qışqıraraq bir söz demək istəyirdi. Bütün deyəcəkləri qəlbində idi, amma səsini çıxara bilmirdi, tez-tez nəfəs alıb Rəmziyə baxırdı.

Rəmzi də Ayşə kimi idi. Kifayət qədər uzaqlaşmışdı. Dönüb Ayşəyə baxdı və əl etdi:

– Sağlıqla qal, Ayşəcik!

– Sağlıqla qalın, Rəmzi Ağa, sağlıqla qalın! Məcikə yaxşı baxın.

Ayşə birdən anasının dediklərini xatırladı, Rəmziyə tərəf getdi, üç-beş addım qalanda dayandı, həyəcanla dedi:

– Anam dedi ki, Məcikə yaxşı baxın! Ona göz-qulaq olun, gözdən qaçırmayın. Balaladığı gündə göz aydınlığa gəlin, Rəmzi Ağa. Anam mənə dedi, mən də sizə deyirəm. Gələrsinizmi?

– Gələrəm, Ayşə, gələrəm.

– Amma mütləq gələrsiz, eləmi, Rəmzi Ağa?

– Mütləq gələcəm, Ayşə!

İndi ikisinin də üzü gülürdü, ikisinin də könlü şən idi, bir-birlərini hiss edirdilər.

– Uğurlar olsun, Rəmzi Ağa!

Məcik Rəmzidən bir az uzaqlaşmışdı. Düzənliyin arxasında heyvanlar həzin-həzin səslənirdilər, Rəmzini çağırırdılar. Günəş tam ayı Dağın üstündə idi. Günəşin istisi torpağı yandırmadan heyvanları otlağa aparmaq lazım idi.

– Sağlıqla qal, Ayşə!

Rəmzi atını sürdü. Arabir dönüb Ayşəyə baxırdı, əl edirdi dəsmalla, gülümsəyirdi, gözləri və qəlbləri ilə bir-birlərinə çox şirin, çox həsrətli şeylər deyirdilər.

Məcik yoxuşun gerisində gözdən itdi. Rəmzi də yoxuşda sonuncu dəfə dayandı, döndü, Ayşəyə baxdı, sonuncu dəfə əl etdi. Ayşədə dəsmalı ilə: “Bəli, bəli, könlüm səninlə!” – demiş kimi cavab verib ayrıldılar.

Ayşə tək qaldı. Məcik ilə Rəmzi tam gözdən itdilər. Yoxuşun arxasındakı heyvanların qəribə səsləri də yavaş-yavaş kəsilmişdi. Amma Ayşənin könlü bu yalnızlığı hiss etmirdi. Xeyr! Bu səhər onun könlünə bir şey girmişdi, şirin qiymətli bir şey… Bu səhər həyatındakı bütün səhərlərdən bambaşqa idi, hamısından ən yaxşısı. Ürəyinə hardan gəldiyini bilmədiyi şirin, xoş duyğular dolurdu, bütün beyni ilə bir quş kimi xəfifləyirdi, uçub Gəlinqayaya qonmaq, ötüb sevincini dünyaya bildirmək istəyirdi.

Ayşə heç özünü bu qədər rahat hiss etməmişdi. Həyatında çox şirin, çox xoş bir şey olmuşdu. Nə idi? Yaxşı bilmirdi, amma hiss edirdi.

Tütün sahələrinə tərəf getdi. Yüksəklikdəki qayaların arasından dar yolu seçdi. Məxmər yorğanla örtülü kimi yamyaşıl otlu çayırlığa gəldi. İndi aşağıdakı kənd, bağlar, bağçalar gözlərinin qarşısında idi. Getdi, çayırı keçdi, düzlüyə endi. Cır fındıqların arasından bir sevdanın gözyaşı kimi sakit, duru su axırdı. Suyun kənarında durdu, diz çökdü, iki addım uzaqda suda balaca quru bir çalı vardı. Kolların budaqları arasından keçən su yüngül dalğalanaraq, koldan uzaqlaşınca axırdı.

Kənd, dəniz, tütün sahələri görünmürdü. Hələ indicə Günəşin qızıl işıqlarına bürünən Qızıldaş Ayşəni qəflətən tərk edib uzaqlarda gizlənmiş kimi idi. Səssizliklər içində yalnız mavi göy və yaman uçurumları ilə Gəlinqaya Ayşəyə baxırdılar.

Səssizlik və təklikdən bir az qorxmuş kimi idi Ayşə. Hələ diz çökdüyü yerdə suya baxdı. Qırışıqlar edərək axan suda başını çirkin, burnunu yumru, gözlərini qəmli gördü. Qorxdu, əlləri titrəməyə başladı, təkrar baxdı suya. İçindən bir səs dedi:

– A qız, sən nə qədər çirkinsən!

Başı suya əyik, gözləri bağlı, içinə dolan acı ilə üzünün, burnunun, gözlərinin çirkinliyini suya axıtmaq istəyən kimi diz üstə çökdü. Sonra gözlərini açdı, təkrar suya baxdı. Amma su axırdı, çirkinliyi isə qırışan suyla bərabər axıb getmirdi.

Ürəyi qırıq, gözləri qəmli, içi ağrılı ayağa qalxırdı ki suyun kənar tərəfində qaralmış, köhnə bir kötüyə bir quş qondu. Qara qanadlarının ucu ağ, sinəsi qırmızı, çox cana yaxın bir quş idi. Kiçik burnu ilə əvvəl arxasını, sonra qanadlarının altını qaşıdı.

Quşu ürkütmək istəmədiyindən Ayşə hərəkətsiz durdu, gülən gözlərilə quşu seyr etdi. Quşun təmizlənib bəzənmə zamanı idi,deyəsən, balaca burnu ilə qanadlarının altını, sonra sinəsini qaşıyırdı.

Quş balaca başını təkrar sağa bükdü, sola bükdü və pırıl-pırıl uçaraq suda yatan budağa qondu. Quşun ağırlığı altında budaq aşdı. Ayşə üzünü quş tərəfə çevirməyə vaxt tapa bilmədən quş uçdu, cır fındıq ağaclarının yaşıl yarpaqları arasında gözdən itdi.

Ayşə qəmli-qəmli suya baxdı. Amma daha indicə kolların budaqları arasından qırışıqlar edərək axan su indi düz axırdı. İndi Ayşənin sudakı üzü də dəyişmişdi. Ayşə gözlərinin, dodaqlarının bütün gözəlliyi ilə sakit axan suya baxaraq güldü.

Təkrar gözlərində alovlar, yanaqlarında qızartılar, ürəyində ümidlər canlandı. Qalxdı, bayıra dırmaşdı, yüksəklərə çıxdı, yenə aşağıda Qızıldaşın, Qara dənizin gözəl panoramasını gördü. Solda çoxlu çalıların yanından kəndin arxasındakı tütün sahələrinə uzanan yola tərəf getdi. Çox fərəhli idi. Qaçmaq, bayırları, təpələri, dərələri aşmaq istəyirdi. Ayaqları Ayşəni çox uzaqlara aparmaq istəyirdi, kolların içindəsə quşlar oxuyurdu. Hamısı da Ayşəyə sanki deyirdilər: "Gözəlsən, çox gözəlsən!"

Quşların nəğməsi, Günəşin qızıl şüaları, dəniz, kənd və həyət yüksək göyün altında elə gözəl, elə xoşdu ki, Ayşənin gənc qəlbini elə qucaqlamışdı ki, bütün bu həyəcanını tökmək, fərəhlənmək ehtiyacı ilə bir şeylər etmək istəyirdi: qaçmaq, qışqırmaq, yaxud yerə yatıb torpağı, həyatı atəşli dodaqları ilə öpmək…

Çiyinlərinə tökülən dalğalı gur saçlarını arxaya atdı, başını qaldırdı, sahələrə uzanan yolda gedərkən gənc, dinc səsi ilə bir mahnı oxudu:

Qaya kimi saz olar,
Gül açarsa yaz olar.
Mən sənə gül demərəm,
Gülün ömrü az olar.

Səsi yüksəlir, uzaqlara uçur, səsi yüksəldikcə sinəsi iftixarla qabarır, bütün dünyaya eşitdirmək istəyirmiş kimi daha da sürətli oxuyurdu. Ayşənin bildiyi, gördüyü dünya Qızıldaşın evləri, dağları, dənizi idi. İndi səsi dağlarda hər yerə, hər kəsə çatırdı.

Yolun aşağısında küləkdə uçmasın deyə damları daşlarla basdırılmış ilk sahələr göründü. Sahələrin qarşısında qızlar işlərini buraxmış, Ayşəyə baxırdılar, Ayşə də qızlara eşitdirmək istəyirmiş kimi gur səsi ilə mahnını davam edirdi:

Qaya qayaya baxar,
Qayadan sellər axar
Sırma bığ dayanarkən
Saqqallıya kim baxar?

Sahələrin yanında Ayşəni seyr edən qızlar, nəhayət, yola tərəf gəldilər. Uzaqda dayandılar, əllərini ağızlarına qaldırıb ovuclarını boru edib qışqırdılar:

– Nə var, Ayşə qız, bığlı atlı yolunu kəsdi?

Ayşə də dayandı, əlini ağzına qaldırıb cavab verdi:

– Kəsdi də!

Qızlar Ayşəyə yaxınlaşdılar. Ayşə də qızlara tərəf getdi. Hamısının da ayaqlarında çarıqlar, dizlərinə qədər çıxan qırmızı, ağ, qəhvəyi rəngli yun corablar var idi. Yolun kənarında çör-çöplə örtülü, alçaq daş divarın arxasında durdular. Sərt torpaqla məşğul olmaqdan əlləri, barmaqları quru və çatlaq idi. Günəşdə qızarmış, yanmış, toz-torpaq içində üzləri ilə torpaqdan doğmuşa bənzəyirdilər, torpağın uşaqları kimi idilər.

Yalnız Ayşə fərqli idi onlardan. Evin bircəcik qızı idi. Qumral, parlaq saçlı Ayşə, axşamlar anası yanaqlarına, əllərinə, ağ qollarına odekolon sürtdüyü üçün gül kimi qoxulu və təzə idi. Bəlkə, dəhlizdə çiçəklərin, salxımların altında uzun zaman oturaraq bir şəhər qızı kimi qəzet oxuduğu üçün yaxşını pisdən ayıra bilirdi, pisliklərə kədərlənirdi. Kəndin torpağı, Günəşi, havası ilə bəslənmiş, böyümüş sağlam bədənində incə bir ruh inkişaf etmişdi. Tez həyəcanlanır, həyəcanı keçincə sonra oturur, dizlərini qolları ilə qucaqlayaraq səssizcə ağlayardı. Səssizlik uzandıqca özünü ölmüş, cənnətdə görürdü. Cənnət quşları ilə oynayır, dənizin, torpağın, dağların, kəndinin səadət və dincliyini könlündə hiss edirdi.

İndi kolluğun kənarında kənd qızları, özlərinə baxaraq görəsən nələr düşünürdülər? Aralarında gözəllər də var idi, o gözəllər gül kimi təzə Ayşəni qısqanmırdılar, boynuna-buxununa, üzünün gözəlliyinə paxıllıq etmirdilər? Bəlkə! Çünki Ayşə qısqanılacaq qədər gözəl idi.

Kolların kənarında qızlar danışırdılar:

– Gözəl Ayşə, bütün aləm tütün qırarkən, sən Moskva xanımları kimi dağlarda gəzirsən…

– Ondakı gözəllik məndə olsaydı da işsiz-gücsüz gəzərdim dağlarda…

Ayşə kolların arxasından gələn səslərin səmimi olduğuna inandı, güldü:

– Mənim kimi hamınız gözəlsiniz, qızlar!

– Demə, qız, demə! Sənin kimi gözəl olsaydıq biz də inəyi apardıq.

– Gəlinqaya başında çoban Səid Əlinin Rəmzisini söhbətə tutardıq həm…

Ayşənin üzü birdən-birə qızardı, başını sinəsinə əydi, tütün sahələrinə tərəf getdi. Qızlar arxasından gülüşərək ona baxırdılar. Gülüşmələr arasından bəzən Ayşənin qulaqlarına qırıq-qırıq kəlmələr, səslər gəlirdi, amma Ayşə bunları eşitmirdi. Çünki Rəmzi adını eşidincə ürəyində anlaşılmaz bir ağrı hiss etmişdi. Səssizcə irəliləyərkən çox geridə qalmış qızlardan biri arxasından səslədi:

– Yeni ailənə nə vaxt köçəcəksən, ay qız?

– Söylə bizə, söylə, Ayşə qız!

Ayşə durdu, yavaş-yavaş qızlardan yana döndü, incimiş bir səslə cavab verdi:

– Hələlik atamın ailəsi mənim üçün hər ailədan yaxşıdır. Yeni ailəyə köçməli olsam hamınıza xəbər verəcəm.

– Vay, vay, necə tez incidi!

– Zarafatda başa düşmür artıq, gördünmü, ay qız?

– Atası çoban Səid Əlinin evini Ayşəyə layiq görmür.

– Demə!

– Elə eşitdim.

– Kürəkəni Samsundan gəticəkmiş.

– Vay, vay!

Qızlar uzun bir qəhqəhə çəkdilər. Ayşə səssizcə dayanıb, qızlara baxmırdı. Bir şey söyləyəcəkdi, amma boğazına bir yumru tıxanmışdı, səsi çıxmırdı. Ağlamaq istəyirdi, lakin ağlaya da bilmirdi. Həm niyə ağlasın ki? Güldü. Rəmzini xatırladı, üzü təkrar ciddiləşdi. Amma zarafatlarına niyə Rəmzini qarışdırırdı ki? Rəmzisiz zarafat edə bilməzdilər? Döndü, tütün sahələrinə tərəf getdi.

Öz sahələrinə yaxınlaşdı. Sahənin qarşısındakı cilalanmış meydanda iki tərəfi böyük tütün səbətləri ilə yüklü at dururdu. Atın yanında anası arabir əlini Günəşə qaldıraraq təpələrə baxırdı. Ayşə: “Zavallı, məni gözləyir!” – deyə düşündü, ürəyi sıxıldı, addımlarını sürətləndirdi.

Günəş artıq Ayı Dağı geridə buraxmışdı. Yaylanın üstündə toplanmış ağ buludlar heç tərpənmirdilər, yalnız bir bulud parçası araşdıraraq Roman Koşun uçurumlarından enib Topqayaya tərəf gedirdi. Günəş yandırır, əkilməmiş çöllərdə soba dəmirləri kimi qızmış quraq torpaqların, iti qayaların üzərində alovsuz bir atəş parlayırdı. Günəş tütün tarla və sahələrini sıxıb qovurduğu halda kəndlilər işlərini buraxmırdılar. Hər kəs səssizcə çalışır, yorğunluqlarını unudaraq içlərindən günün uzanmasını istəyirdilər.

Çöllərdə sadəcə enib çıxan atların, uzunqulaqların arxasında gedən insanların səsləri eşidilirdi. Battal Ənvər kimi gənc kəndlilər atlarını düzənliklərdə yolların kənarlarında böyümüş ağac kölgələrində saxlayıb, mahnı da oxuyurdular.

Ayşə olduğu yerdən yolun aşağısında tarlasında işləyən atasını görə bilirdi. Çatrapi armudları ilə dərə arasındakı çöldə idi tarla. Ayşə gedərkən bəzən atasına baxır, onun tütünlərin içində bükük belini görürdü. Bu bükük bel hərəkətsiz qaldıqca Ayşə atasını tarlanın ortasına batmış bir qayaya oxşadırdı, amma hərəkət etdiyi zaman atasının üzündəki tərləri, toz-torpaqları gözlərinin qabağına gətirirdi, atasının yorğunluğunu, belinin ağrısını ürəyində hiss edirdi, atasını dünyanın ən zavallı insanı kimi

görürdü. Bəzən öz-özünə soruşurdu: “Niyə atam bu qədər işləyir, kimin üçün, nə üçün? Həm şəhər həyatı daha yaxşı deyil ki?”

# Конец ознакомительного фрагмента.

Текст предоставлен ООО «ЛитРес».

Прочитайте эту книгу целиком, купив полную легальную версию на ЛитРес.

Безопасно оплатить книгу можно банковской картой Visa, MasterCard, Maestro, со счета мобильного телефона, с платежного терминала, в салоне МТС или Связной, через PayPal, WebMoney, Яндекс.Деньги, QIWI Кошелек, бонусными картами или другим удобным Вам способом.